## Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin 2019-cu ilin yekunları üzrə görülmüş işlər barədə Hesabatının qısa icmalı

2019-cu ildə ölkəmizdə həyata keçirilən islahatlar çərçivəsində görülən tədbirlər nəticəsində əqli mülkiyyət (ƏM) sahəsində əhəmiyyətli dəyişikliklər baş vermiş, ƏM sisteminin inkişafına yönəlmiş bir sıra normativ hüquqi sənədlər qəbul edilmiş, koqnitivlik, kreativlik və kommersiyalaşmanı birləşdirən idarəetmə modeli formalaşmış, əqli mülkiyyət hüquqlarının (ƏMH) qorunması və təmin edilməsi, "one-stop-shops" prinsipi üzrə rəqəmsal hüquqların idarə edilməsi, kontrafaksiya və piratçılığa qarşı mübarizə, sənaye mülkiyyəti obyektlərinin idarəçiliyinin müasir tələblərə uyğun şəffaf təşkil edilməsi, yeni rəqəmsal xidmətlərin və informasiya sistemlərinin yaradılması istiqamətlərində zəruri işlər görülmüşdür.

İnnovasiyalı inkişaf və iqtisadi artımda ƏM-in roluna aid araşdırmalar aparılmış, nəticələr təhlil edilmiş və istifadə olunmuş, patent və əmtəə nişanlarına dair müraciət edən şəxslər üçün dürüstlüyün, açıqlığın və şəffaflığın təmin edilməsi, əhaliyə göstərilən dövlət xidmətlərinin səviyyəsinin yüksəldilməsi, "vahid pəncərə" prinsipinin təmin edilməsi, ixtira və patent fəallığının artırılması, patent, əmtəə nişanlarının sifarişçiləri və ekspertiza və digər xidmətləri göstərənlərlə kontaktsız münasibətin qurulması məqsədi ilə ASAN tipli "Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf" (PƏNAH) rəqəmli informasiya sisteminin yaradılması üzrə işlər tamamlanmış, sistem test rejimində işə salınmş, həmçinin informasiya texnologiyalarının verdiyi imkanlar hesabına ƏMH-nın qorunmasının yeni sistemlərinin yaradılması üzrə işlər görülmüşdür.

İxtiraçılara dəstək məqsədilə beynəlxalq patent qeydiyyatı PCT sisteminin təşviqi və dövlət tərəfindən xərclərin bir qisminin ödənilməsi, həmçinin ölkəmizin patent alınmasını sadələşdirən "Patent Hüququ Müqaviləsi"nə (PLT) qoşulması, universitetlərdə, elmi-tədqiqat institutlarında və KOS subyektlərində İP ofislərin yaradılması və mövcud ofislərin texnologiyaların kommersiyalaşması və transferi mərkəzlərinə çevrilməsi, Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin (TKTM) və Texnologiya və İnnovasiyalara Dəstək Mərkəzinin (TİDM), o cümlədən Əqli Mülkiyyət Agentliyinin nəzdində yaradılması və fəaliyyətlərinin təşkili edilməsi istiqmətlərində işlər davam etdirilmişdir.

Agentliyin tabeliyində olan Patent və Əmtə Nişanlarının Ekspertizası Mərkəzinin fəaliyyətində səmərəliliyin artırılması məqsədilə ekspertiza meyarları təhlil edilərək təkmilləşdirilmiş, əhaliyə göstərilən xidmətlərin keyfiyyəti artırılmış, Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzində rəqəmli hüquqların idarə edilməsi, mədəni irsin milli elektron məlumat bazasının yaradılması və təlim xidmətlərinin göstərilməsi üzrə tədbirlər həyata keçirilmişdir.

Agentliyin qarşısında qoyulmuş əsas vəzifələrdən biri kimi Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının fəaliyyətinin müasir çağırışlar nəzərə alınmaqla yenidən qurulması məqsədilə onun balansında olan əmlak, kitab və sənədlər fondu, eləcə də əhaliyə göstərilən xidmətlərin monitorinqi aparılmış, nəticələri təhlil edilmiş, aşkara çıxarılan nöqsan və çatışmazlıqların aradan qaldırılması, göstərilən dövlət xidmətlərinin səviyyəsinin yüksəldilməsi, işçilərin sosial və iş şəraitərinin yaxşılaşdırılması istiqamətlərində tədbirlər görülmüş, Kitabxananın infrastrukturu və maddi-texniki bazası təkmilləşdirilmiş və gücləndirilmiş, ona "Respublika" statusu verilmişdir. 2019-cu ildə işçilərin sayının azalmasına baxmayaraq, fəaliyyət səmərəliliyinin artırılması və daha çevik idarəetmə modellərindən istifadə etmək sayəsində əhaliyə göstərilən xidmətlərin səviyyəsi yüksəldilmişdir.

**1. Əqli mülkiyyət və iqtisadi inkişafla bağlı dövlət başçısı İlham Əliyevin iqtisadiyyat sahəsində islahatların aparılmasına dair fərman və sərəncamlarndan irəli gələn vəzifələrin icrası.** Emi-tədqiqat nəticələri olan yeni texnologiyaların iqtisadiyyatda tətbiqi, kommersiyalaşmasının təmin olunması və iqtisadi səmərəsinin

artırılması, milli brendlərin təbliği, innovasiyaların cəlb edilməsi üzrə fəaliyyətlərin dövlət başçısının islahatlar siyasətinin tələblərinə uyğunlaşdırılması üçün Agentliyin fəaliyyəti bu siyasətlə müəyyən edilən aidiyyəti vəzifələrin icrasına xidmət etməyə yönəldilmişdir.

Bu istiaqmətlərdə aparılan işlərə dəstək verilməsi məqsədilə Agentliyin təşkilatçılığı ilə 7 konfrans, regional seminar (onlardan 4-ü milli, 3-ü beynəlxalq) keçirilmiş, sahə üzrə biliklərin artırılması məqsədilə "Patent qanunvericiliyinin təkmilləşdirilməsi və qarşımızda duran vəzifələr", "İnnovativ inkişafda texnologiyaların kommersiyalaşdırılması və transferi mərkəzləri (yaradılması və fəaliyyəti üzrə tövsiyələr)", "İnnovasiyalı inkişaf və iqtisadi islahatlar: əqli mülkiyyətin və texnologiyaların kommersiyalaşdırılmasının rolu" və s. mövzularda kitablar hazırlanaraq nəşr olunmuş, kitab sərgiləri təşkil edilmiş, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Texnologiya və innovasiyalar" işçi qrupuna ƏM-ə aid beynəlxalq indikatorlar üzrə ölkəmizin reytinqlərinin yaxşılaşdırılması üçün ilk dəfə olaraq təkliflər hazırlanaraq təqdim edilmişdir.

Son illər bütün sahələrdə, o cümlədən ƏM sahəsində aparılan islahatlar ölkəmizin beynəlxalq reytinqlərdə mövqelərinin daha da möhkəmlənməsinə səbəb olmuş və bu uğurlar nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapmışdır.

Belə ki, Dünya İqtisadi Forumunun 2019-cu il üçün dərc etdiyi Qlobal Rəqabətqabiliyyətlilik İndeksi üzrə Hesabatına görə, Azərbaycan 141 ölkə arasında "mülkiyyət hüquqlarının qorunması" üzrə 37-ci və "əqli mülkiyyətin qorunması" göstəricisinə görə 30-cu yeri tutmuşdur. Bu göstərici üzrə ölkəmiz MDB dövlətləri arasında 1-ci yeri tutur və bir çox Avropa ölkələrini qabaqlayır.

**Qlobal Rəqabətlilik Hesabatın "Əqli mülkiyyətin qorunması" indikatoru**




Cədvəldən göründüyü kimi, "Qlobal Rəqabətqabiliyyətlilik İndeksi"nin son beş ilin göstəricilərinə görə, Azərbaycanın "Əqli mülkiyyətin qorunması" üzrə göstəriciləri daim yüksələn xətlə dəyişib. Bu nəticələr cənab Prezidentin apardığı islahatları ikinci dalğasının nəticələridir. "Patent ərizələri" üzrə göstəricilərdə də Azərbaycanın reytinqi yüksəlib və bunun nəticəsində əqli mülkiyyətlə əlaqəli "İnnovasiya" indeksi üzrə 2018-ci illə müqayisədə ölkəmiz 3 pillə irəliləyərək 68-ci yeri tutub.

## 2. Qanunvericilik və normativ hüquqi bazanın təkmilləşdirilməsi.

Ölkəmizdə aparılan islahatlar çərçivəsində dövlət başçısının 2018-ci il 20 aprel tarixli 5 nömrəli Sərəncamının icrası, eləcə də ƏM qanunvericiliyinin təkmilləşdirilməsi və beynəlxalq qanunvericiliyə uyğunlaşdırılması ilə əlaqədar 2019-cu il ərzində müvafiq qanunvericilik aktlarına ƏM-lə bağlı dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 6 Qanun, Azərbaycan Respublikasının Prezidenti tərəfindən 9 Fərman və 2 Sərəncam imzalanmış, Nazirlər Kabinetinin 14 qərarı və 1 sərəncamı qəbul edilmiş, həmin normativ-hüquqi sənədlərin layihələrinin hazırlanması və işlənilməsində Əqli Mülkiyyət Agentliyi iştirak etmişdir.

Nazirlər Kabinetinin müvafiq Qərarları ilə "İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsi sahəsində göstərilən xidmətlərin siyahısı və həmin xidmətlərə görə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə ödəniləcək haqların məbləğləri", "Patentin alınması barədə iddia sənədinə aid Tələblər", "İxtira, faydalı model və sənaye nümunələrinin dövlət reyestrinə daxil edilməsi Qaydası", "İddia sənədi üzrə məlumat axtarışının və mahiyyətcə ekspertizanın aparılması Qaydası" və "Dərc olunmuş iddia sənədinin materialları ilə tanışlıq Qaydası" təsdiq edilmişdir.

Qanunvericilik bazasının təkmilləşdirilməsi və bu sahədə Agentlik tərəfindən aparılan işlər ölkəmizdə bütövlükdə ƏM sahəsində fəallığın artmasına və əhaliyə göstərilən xidmət səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur.

**3. İnnovativ inkişafda əqli mülkiyyət siyasətinin təhlili.** Hesabat ilində sənaye mülkiyyəti sahəsində son 8 ildə olan mövcud vəziyyət təhlil edilmiş, aşkara çıxarılan çatışmazlıq və problemlərin aradan qaldırılması üçün zəruri addımlar atılmış, ixtira, faydalı model, sənaye nümunəsi və əmtəə nişanlarının ekspertizasını həyata keçirən Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin (PM) bu sahədə innovasiyaların dəstəklənməsinə yönələn siyasəti formalaşdırılmışdır. Beynəlxalq təcrübədə qəbul edilmiş ən müasir indikator və göstəricilər vasitəsi ilə sahənin səmərəliliyi ölçülmüş, həmçinin PM-in fəaliyyətini qiymətləndirmək üçün indekslər (göstəricilər) sistemi (ixtira və patent fəallığı əmsalı, ixtira və patent özünü təminetmə əmsalı, ixtira və patent asılılığı əmsalı, ixtira və patent yayılması əmsalı, ixtira potensialının reallaşması əmsalı) yaradılmış, patent sistemi qarşısında qoyulmuş əsas məqsəd və vəzifələrin yerinə yetirilməsi zəruri işlər görülmüşdür. **Bununla da innovativ inkişafda ƏM-in yeri müəyyən edilmiş və onun təsirinin gücləndirilməsi ilə bağlı tədbirlər həyata keçirilib.**

**Son iki ilin göstəricilərinin müqayisəsi göstərir** ki, sənaye mülkiyyəti sahəsində fəaliyyət aktivləşmiş, ixtiralara verilmiş patentlərin sayında 2018-ci illə müqayisədə artım baş vermişdir. Belə ki, 2019-cu ildə ixtira üzrə 167 iddia sənədi daxil olmuş, 102 ixtira patenti verilmişdir. Bu isə 2018-ci ildəkindən 32 patent çoxdur. 2019-cu ildə faydalı modellərə dair 58 iddia sənədi daxil olmuş, 16 patent verilmişdir. Sənaye nümunələrinə dair 78 iddia sənədi daxil olmuş, onlardan 32-nə patent verilmişdir. Bu isə 2018-ci illə müqayisədə müvafiq olaraq 37 iddia sənədi və 8 patent çoxdur. 2019-cu ildə coğrafi göstəricilər üzrə 5 patent verilmişdir.

Əmtəə nişanlarına dair iddia sənədlərində və verilmiş qoruma sənədlərində də artım olmuşdur. Belə ki, 2019-cu ildə əmtəə nişanlarına dair 2317 (2018-ci ildə 1958) iddia sənədi daxil olmuş, 1114 qoruma sənədi (2018-ci ildə 1070) verilmişdir.

İlk dəfə olaraq patent analitikası və patent landşaftlarına əsaslanaraq Azərbaycan ixtiraları vasitəsi ilə ölkənin texnoloji profili müəyyən edilib və patent üzrə aparıcı ölkələrin dünyada ən qabaqcıl istiqamətləri təqdim edilib.

**4. Əqli mülkiyyətin kommersiyalaşdırılmasına, texnologiyaların tətbiqinə və innovasiyalara dəstək.** İnnovativ inkişafa və əqli fəaliyyət nəticəsi olan yeni texnologiyaların tətbiq olunması, texnologiyaların kommersiyalaşdırılması və transferi, KOS-ın iqtisadi rolunun və innovasiya imkanlarının artırılması, texnoloji innovasiyaların stimullaşdırılması istiqamətlərində ölkəmizdə aparılan işlərə dəstək verilməsi məqsədi ilə hesabat ilində aidiyyəti üzrə tədbirlər həyata keçirilmiş, sahənin mütəxəssisləri üçün "İnnovasiyalı inkişaf və iqtisadi islahatlar: əqli mülkiyyətin və texnologiyaların kommersiyalaşdırılmasının rolu" mövzusunda konfrans təşkil edilmiş, Agentliyin nümayəndəsi 2019-cu il 20 dekabr tarixində Prezident Administrasiyasında keçirilən müşavirədə "İnnovasiyalı inkişaf və ƏM" mövzusunda çıxış etmiş, eyni adlı kitab nəşr olunub yayılmışdır.

Qlobal texnoloji trendlərin milli rəqabətqabiliyyətliliyə təsirinin elm və texnologiya sahəsi üçün yeni çağırışlar formalaşdırdığını nəzərə alaraq, 2019-cu ildə ƏM-in kommersiyalaşdırılması və texnologiyaların transferi, bu sahədə müvafiq mərkəzlərin yaradılmasına dəstək verilməsi məqsədilə aşağıdakı istiqamətlərdə iş aparılmışdır.

**1) Azərbaycanda texnoloji bazarın araşdırılması, kiçik və orta müəssisələrin innovativ fəaliyyətinin təhlili və qiymətləndirilməsi.** Ölkədə ƏM mədəniyyətinin formalaşdırılması və bununla əlaqədar yaranan məsələlərdə birgə fəaliyyəti təşkil etmək, bu sahədə müştərək layihələrin həyata keçirilməsi məqsədilə Əqli Mülkiyyət Agentliyi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyi arasında Əməkdaşlıq haqqında Memorandum və Fəaliyyət planının layihəsi hazırlanmış və hazırda razılaşdırma mərhələsindədir. Sənəd KOS subyektlərinin milli iqtisadiyyatın dayanıqlı inkişafında rolunu, innovativ sahibkarlığın əhəmiyyətini və ƏM obyektlərinin qorunması vacibliyini nəzərə alaraq, KOS subyektlərinə məxsus ƏMH-nın qorunmasını təmin etmək, onların fəaliyyətinə dəstək verməkdir.

**2) Texnologiyaların kommersiyalaşması və transferi mərkəzlərinin yaradılması ilə bağlı işlər.** TKTM-nin yaradılması üçün üç əsas hüquqi təsisat (MMC, Fond və Publik Hüquqi Şəxs) forması təklif edilmiş, onların Nizamnamə layihəsi hazırlanmış, təklif edilən formaların dəyərləndirilməsi üçün təhlil aparılmış, yekun olaraq Publik Hüquqi Şəxs forması seçilmiş, yaradılacaq Mərkəzin başlıca məqsədləri və fəaliyyətinin ümumi istiqamətlərini əks etdirən sənədlər toplusu Nazirlər Kabinetinə təqdim edilmişdir və hazırda sənədlər toplusu Nazirlər Kabinetində baxılmaqdadır.

Bununla yanaşı, “Texnoloji innovasiyaların idarə edilməsi” mövzusunda vəsait və “Texnologiyaların kommersialaşdırılma bələdçisi” qısa metodik vəsait hazırlanır.

**3) Texnologiyalara və İnnovasiyalara Dəstək Mərkəzlərin və əlaqəli şəbəkənin yaradılması.** Bu layihə ÜƏMT-nin təşəbbüsü və Əqli Mülkiyyət Agentliyinin dəstəyi ilə həyata keçirilir və layihənin icrası ilə bağlı 31 may 2019-cu il tarixində keçirilmiş seminarda 12 universitet və elmi-tədqiqat institutunun innovasiyalar və patent üzrə mütəxəssisləri iştirak etmiş, tədbirdə TİDM-lərin əsas vəzifələri və yaradılması prinsipləri barədə ətraflı məlumat verilmiş, TİDM-in yaradılması haqqında Razılaşma nümunəsi, onun Əsasnamə layihəsi hazırlanmış, bu sahədə fəaliyyəti stimullaşdırmaq məqsədilə “Azərbaycanda Texnologiya və İnnovasiyalara Dəstək Mərkəzlərinin Yaradılması” üzrə beynəlxalq layihə çərçivəsində Respublika müsabiqəsi keçirilmişdir.

Bununla yanaşı, “Ali təhsil müəssisələrin innovasiya pasportu” layihəsi hazırlanmışdır. Pasport 32 göstərici əsasında hazırlanmış və innovasiya fəaliyyətinin bütün aspektlərini tam xarakterizə edən 4 modul üzrə qruplaşdırılmışdır.

## 5. Əqli mülkiyyət hüquqlarının obyektlərinin qeydiyyatı.

**5.1. Sənaye mülkiyyəti obyektlərinə dair iddia ərizələrinə baxılması nəticələri, sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı və reyestrə daxil edilməsi.** 2019-cu ildə patent sisteminin inkişaf etdirilməsi istiqamətində məqsədyönlü iş aparılmış, iddia sənədlərinin ekspertizasının vaxtında və keyfiyyətlə aparılmasına nəzarət gücləndirilmiş, şəffaflıq və tələbkarlıq artırılmışdır. ƏMH obyektləri barəsində daxil olmuş iddia sənədlərinin ekspertizası və həmin obyektlərin dövlət qeydiyyatı üzrə aşağıdakı istiqamətlərdə tədbirlər görülmüşdür:

**İxtira və faydalı modellər üzrə.** Hesabat ilində Agentliyə ixtiraya dair 167, faydalı modelə dair 58 iddia sənədi, 11 beynəlxalq iddia sənədi (PCT) və 39 Avrasiya iddia sənədi daxil olmuşdur. İddia sənədlərinin ilkin ekspertizası nəticəsində 37 Avrasiya iddia sənədi, 11 PCT iddia sənədi, ixtira və faydalı modelə dair ümumilikdə 294 müsbət nəticə haqqında bildiriş, ilkin ekspertizaya dair 110 sorğu, kargüzarlığın dayandırılması haqqında 38 bildiriş göndərilib, iddia sənədləri üzrə 98 axtarış aparılıb.

Mahiyyətcə ekspertiza üzrə: İxtira və faydalı modelə dair 263 sorğu verilib, iddia sənədi barədə məlumatların dərci haqqında 244 qərar, patent verilməsindən imtina

haqqında 11 qərar, patent verilməsindən imtina haqqında 3 bildiriş, kargüzarlığın dayandırılması haqqında 42 bildiriş və ixtiranın faydalı modelə çevrilməsi haqqında 19 bildiriş göndərilmişdir.

**Əmtəə nişanları və sənaye nümunələri üzrə:** Milli əmtəə nişanlarının qeydiyyatına dair 2317 və sənaye nümunələrinin qeydiyyatı ilə bağlı 78 iddia sənədi daxil olmuşdur. Ekspertizanın nəticələri müsbət olan milli əmtəə nişanlarının sayı 1557, coğrafi göstəricilərin sayı 7, milli sənaye nümunələrinin sayı 67 olmuşdur.

Haaqa sistemi vasitəsi ilə Sənaye nümunələrinin beynəlxalq qeydiyyatına dair 154 bildiriş sənədləri daxil olmuş, onlardan 134-nün ekspertizası başa çatdırılaraq müsbət qərar qəbul edilmişdir.

Milli əmtəə nişanları üzrə 1796, coğrafi göstəricilər üzrə 1, milli sənaye nümunələri üzrə 25, beynəlxalq sənaye nümunələri üzrə 20 iddia sənədinin ekspertizası və digər prosedurlar davam etdirilir. Beynəlxalq əmtəə nişanlarının Azərbaycan Respublikasında qeydiyyata alınması ilə bağlı Madrid Sazişi və ona dair Protokol çərçivəsində 2018-ci il üzrə ÜƏMT-nin Beynəlxalq Bürosundan daxil olmuş 3484 beynəlxalq iddia sənədi üzrə ekspertiza başa çatdırılmışdır (ekspertiza 12 ay ərzində aparılır). 2019-cu ildə beynəlxalq əmtəə nişanlarının qeydiyyatı ilə bağlı ÜƏMT-nin Beynəlxalq Bürosundan daxil olan sənədlərin sayı 3452 olmuşdur. Yerli iddiaçılar tərəfindən əmtəə nişanlarının beynəlxalq qeydiyyatna dair 8 iddia sənədi daxil olub. Onlardan 7-i ilkin ekspertizası aparıldıqdan sonra ÜƏMT-yə göndərilib, 1 əmtəə nişanı ilkin ekspertiza mərhələsindədir.

**Sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı və reyestrə daxil edilməsi.** 2019-ci ildə Əqli Mülkiyyət Agentliyinə ixtira, faydalı model və sənaye nümunələrinə dair 4248 ədəd müraciət və ərizə daxil olmuşdur (2018-ci ildə 2973). Sənaye mülkiyyəti obyektləri üzrə Dövlət reyestrində ixtiralara dair 102 patent (2018-ci ildə 64), faydalı modellərə dair 16 patent (2018-ci ildə 16), sənaye nümunələrinə dair 32 patent (2018-ci ildə 24) qeydiyyata alınmışdır.

Təqdim olunan cədvəllərdə 2019-cu ildə ixtiraya və faydalı modelə dair qeydiyyatdan keçmiş patentlər və onların Beynəlxalq patent təsnifatının sinifləri üzrə paylanması, sənaye nümunəsinə dair qeydiyyatdan keçmiş patentlər və onların Sənaye nümunələrinin beynəlxalq təsnifatının sinifləri üzrə paylanması göstərilmişdir.

| BPT-nin bölməsi | | İxtiralara dair patentlərin sayı 2019 | |
|---|---|---|---|
| | | milli | xarici |
| A | İnsanın həyarı tələbatların təmin edilməsi | 12 | 1 |
| B | Müxtəlif texnoloji proseslər | 12 | - |
| C | Kimya və metallurgiya | 37 | 2 |
| D | Toxuma mallar və kağız | 4 | - |
| E | Tikinti, mədən işləri | 8 | 6 |
| F | Mexanika, işıqlandırma, isitmə, mühərriklər və nasoslar, silah və döyüş sürsatı, partlama işləri | 4 | 1 |
| G | Fizika | 11 | 1 |
| H | Elektrik | 2 | 1 |
| Cəmi | | 90 | 12 |

| BPT | Faydalı modellərə dair patentlərin sayı 2019 | |
|---|---|---|
| | milli | xarici |
| A | 3 | 1 |
| B | 3 | - |
| E | 3 | 1 |
| F | 3 | - |
| G | - | 1 |
| H | - | 1 |
| Cəmi | 12 | 4 |

| SNBT | Sənaye nümunələrinə dair patentlərin sayı 2019 | |
|---|---|---|
| | milli | xarici |
| 01 | 1 | - |
| 06 | 4 | - |
| 07 | 1 | - |
| 09 | 1 | 2 |
| 11 | - | 1 |
| 12 | - | 6 |
| 14 | - | 1 |
| 17 | 3 | - |
| 21 | 1 | - |
| 24 | - | 1 |
| 25 | 9 | - |
| 32 | 1 | - |
| Cəmi | 21 | 11 |

Hesabat dövründə müvafiq Dövlət reyestrində 1114 ədəd əmtəə nişanı (2018-ci ildə 1070) qeydiyyata alınmışdır.

Coğrafi göstəricilər üzrə istifadə hüquqlarına dair 5 şəhadətnamə milli hüquqi şəxsin adına qeydiyyata alınmışdır.

Sənaye mülkiyyəti obyektləri üzrə 86 müqavilə qeydiyyata alınmışdır. Onlardan 81-i əmtəə nişanları üzrə hüquqların, 1-i ixtira üzrə hüquqların verilməsinə, 1-i sənaye

nümunəsi üzrə hüquqların verilməsinə, 3-ü əmtəə nişanları üzrə istifadə hüququna dair lisenziya verilməsinə aiddir.

**5.2. Müəllif hüquqları obyektlərinin qeydiyyatı və reyestrə daxil edilməsi.** Hesabat ili ərzində **387** müəllifin **834** əsəri qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında **834** Şəhadətnamə verilmişdir, o cümlədən "Elektron xidmət" bölməsi vasitəsi ilə müəlliflərin müraciəti əsasında **32** əsər qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında **32** şəhadətnamə verilmişdir. Bununla yanaşı, hesabat ilində **4** müqavilə qeydiyyatdan keçirilmişdir.

Əsərlərin rəsmi qeydiyyatının tətbiq edildiyi 1996-cı ildən 2020-ci il 1 yanvar tarixinədək Agentlikdə bütövlükdə **12956** əsər və əlaqəli hüquqların obyektləri, o cümlədən "Elektron xidmət" bölməsi vasitəsi ilə 109 müəllifin 225 əsəri qeydiyyatdan keçirilmişdir.

1996-2019-cu illərdə qeydiyyatdan keçirilmiş əsərlərin ümumi sayı (faizlə)
(on-line qeydiyyat daxil olmaqla)




**6. Kreativ iqtisadiyyat.** Hesabat dövründə müəlliflik hüququna əsaslanan kreativ sənayenin 2018-ci il üzrə milli iqtisadiyyat sahələrinə dair faktiki statistik göstəriciləri və dövlət büdcəsi rəqəmləri, təhlil edilmiş, müəlliflik hüququna əsaslanan milli iqtisadiyyat sahələrində istehsalın həcmi müəyyən edilmiş, sonra bu sahələrin ölkə üzrə ümumi daxili məhsulda xüsusi çəkisi hesablanmışdır. Agentliyin apardığı təhlil və hesablamalar göstərir ki, Azərbaycanın ÜDM-də kreativ sənayenin payı ardıcıl olaraq artmaqdadır. Belə ki, son 8 ildə ölkənin ÜDM-də kreativ sənayenin payı 2010-cu ildə 3,5%-dən 2018-ci ilin 1 yanvarına olan vəziyyətə görə 5,1%-ə çatmış və hazırda inkişaf etmiş ölkələr səviyyəsindədir. Müəlliflik hüququna əsaslanan sahələr 8 il ərzində 2,0%-dən 2,9%-ə çatmışdır. Bu isə müəllif hüququ sahəsinin inkişafının əsas göstəriciləridir. 2018-ci ildə Azərbaycanda müəlliflik hüququna əsaslanan sahələrdə istehsalın həcmi 4096,3 mln. manat təşkil etmişdir. Aşağıdakı cədvəl bunu əyani şəkildə göstərir.

**Azərbaycanın kreativ industriyasının, o cümlədən müəlliflik hüququna əsaslanan sahələrin ÜDM-də payı**




Hesabat ilində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 2019-cu il 9 dekabr tarixində keçirilən "Kreativ Azərbaycan" portalının təqdimatı və "Yaradıcı sənayelər: dayanıqlı inkişaf və məşğulluq üçün yeni imkanlar" mövzusunda nazirlər panelində Agentliyin nümayəndəsi "Kreativ iqtisadiyyat, əqli mülkiyyət və iqtisadi artım" mövzusunda, çıxış etmiş, eyni adlı kitab nəşr olunub yayılmışdır.

## 7. Əqli mülkiyyət hüquqlarının təminatı və əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması.

**7.1.** Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmanından irəli gələn vəzifələrin aidiyyəti üzrə icrası çərçivəsində əqli mülkiyyət hüquqlarının təminatı ilə bağlı Agentliyin təşkilatçılığı və Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının dəstəyi ilə 2019-cu il 14 iyun tarixində **"Məhkəmə islahatları: məhkəmə-hüquq sisteminin əqli mülkiyyət hüquqlarının təminatında rolu"** mövzusunda konfrans-təlim, 2019-cu il 5-6 dekabr tarixlərində isə Əqli Mülkiyyət Agentliyi və ÜƏMT-nın birgə təşkilatçılığı ilə **"Əqli mülkiyyət hüquqlarının müdafiəsinin təminatı: ixtisaslaşmış məhkəmələrin milli və beynəlxalq təcrübəsi"** mövzusunda beynəlxalq seminar keçirilmiş, 2019-cu il 21 iyun tarixində Agentliyin rəhbərliyi ilə Dövlət Gömrük Komitəsinin rəhbərliyi arasında keçirilən görüşdə tərkibində ƏMH olan malların idxalı zamanı ƏMH-nın qorunması sahəsində əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

Azərbaycanda Amerika Ticarət Palatasının (AmCham) rəhbərliyi ilə **2019-cu il 25 may tarixində** keçirilmiş görüşdə ölkəmizdə ƏM sahəsində aparılan islahatlar barədə məlumat verilmiş, gələcək əməkdaşlıq perspektivləri, o cümlədən Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzində AmCham-ın nümayəndələri üçün Agentliyin maddi-texniki və məlumat bazalarından istifadə etməklə birgə tədbirlərin və təlimlərin keçirilməsi və s. məsələlər müzakirə olunmuşdur. ƏMH-nın təminatı məsələsi Azərbaycan-ABŞ Hökumətlərarası Komissiyanın Bakıda keçirilmiş 4-cü iclasının gündəliyində də yer almış, bu sahədə müvafiq tədbirlərin həyata keçirilməsi məqsədi ilə 4 iyun 2019-cu il tarixində ABŞ-nın Azərbaycandakı Səfirliyinin iqtisadi məsələlər üzrə müşaviri ilə görüş keçirilmiş, paralel idxal, kontrafakt malların idxalı, ƏMH-nın qorunması məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

**Proqram təminatı** sahəsində piratçılığa qarşı mübarizə tədbirləri çərçivəsində **"Microsoft" şirkəti** ilə əməkdaşlıq davam etdirilmiş, bu sahədə əməkdaşlığın koordinasiya edilməsi məqsədi ilə yaradılmış Agentliyin və "Microsoft" şirkətinin nümayəndələrindən ibarət İşçi qrupun bir neçə görüşü keçirilmiş, **"Oracle" və "Trimble Tekla" şirkətlərinə** məxsus proqram təminatlarından qeyri-qanuni istifadə ilə bağlı həmin şirkətlərin qaldırdığı məsələlərlə əlaqədar onların ölkəmizdəki nümayəndələri ilə görüş keçirilmiş, hüquq pozuntusu hallarının qarşısının alınması, həmçinin lisenziyalı proqram təminatından istifadənin geniş təşviq edilməsi istiqamətində birgə tədbirlər həyata keçirilməsi barədə razılıq əldə olunmuşdur.

**Pozulmuş müəlliflik hüquqlarının bərpası ilə bağlı** 2019-cu ildə hüquqi və fiziki şəxslərdən 10 müraciət daxil olmuş, həmin müraciətlərə müəllif-hüquq qanunvericiliyinin tələbləri nöqteyi-nəzərindən baxımış, bir qismi Agentliyin səlahiyyətləri çərçivəsində həll edilmiş, bir qismi isə aidiyyəti qurumlara göndərilmişdir.

Agentliyin 960 nömrəli "Qaynar xətt"i və ictimai əsaslarla fəaliyyət göstərən "Hüquq məsləhətxanası" müəlliflərin və digər hüquq sahiblərinin istifadəsində olmuş, müəllif-hüquq məsələləri üzrə 1530-dən artıq müraciət və sorğuya baxılmış, qaldırılan məsələlərin həllində, həmçinin iddia ərizələrinin tərtib edilməsində hüquqi köməklik göstərilmiş, Agentliyin nümayəndələri ƏM obyektləri ilə bağlı müxtəlif məhkəmə instansiyalarında keçirilmiş 35 iş üzrə (onlardan 31-sənaye mülkiyyəti obyektləri, 4-ü isə müəllif hüquqları ilə bağlı) 90-dan çox məhkəmə iclasında iştirak etmiş, hər bir iş üzrə ekspert rəyi hazırlanmış, maarifləndirmə tədbirləri keçirilmişdir.

2019-cu ildə Agentliyin Sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya şurası tərəfindən 135 işə baxılmışdır (onlardan 110-u 2019-cu ildə daxil olan, 25-i isə əvvəlki dövrdən qalmış işlərdir). 52 iş üzrə ərizənin təmin edilməsi, 26 iş üzrə ərizənin qismən təmin edilməsi, 45 iş üzrə, o cümlədən əmtəə nişanına dair 43, ixtiraya dair 1, sənaye nümunəsinə dair 1 ərizənin rədd edilməsi haqqında qərarlar qəbul edilmişdir. 12 ərizə baxılmamış saxlanmışdır (ərizə geri götürülmüşdür).

Görülən tədbirlərin nəticəsi olaraq 2005-ci illə müqayisədə piratçılığın səviyyəsi kitab satışı sahəsində 61%-dən **23%-ə**, audio-video məhsul bazarında 90%-dən 58**%-ə**, proqram təminatında 96%-dən **72%-ə** düşmüşdür.

**7.2.** Hüquqi maarifləndirilmə məqsədi ilə Agentliyin təşkilatçılığı və iştirakı ilə **15-ə** yaxın tədbir keçirilmiş, KİV-lərdə **350-dən** artıq informasiya, maarfləndirici və təbliğat xarakterli material dərc olunmuş, TV və radio kanallarında **35-dən** çox veriliş və süjetlər göstərilmiş, Agentliyin təşkil etdiyi tədbirlərdə ölkəmizi, xarici ölkələri və beynəlxalq təşkilatları təmsil edən peşəkar mütəxəssislər, alimlər, beynəlxalq ekspertlər, qeyri-hökumət təşkilatlarının nümayəndələri tərəfindən əqli mülkiyyət məsələlərinə dair **90**-a yaxın prezentasiya və çıxışlar edilmiş, Agentliyin nümayəndələri müxtəlif beynəlxalq tədbirlərdə **15-ə** yaxın təqdimatla çıxış etmişlər.

Ənənəvi olaraq 23 aprel-"Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" və 26 aprel - "Beynəlxalq Əqli Mülkiyyət Günü" ölkəmizdə geniş şəkildə qeyd olunmuş, "Əqli mülkiyyət və idman" mövzusunda seminar keçirilmiş, maarifləndirici materialların nəşri və əhali arasında yayılması üzrə fəaliyyət davam etdirilmiş, ümumilikdə **2019-cu ildə 1630 nüsxədən** çox kitab, kitabça və broşuralar buraxılmış, çoxsaylı maarifləndirici materiallar, o cümlədən müəllif-hüquq sahəsi üzrə beynəlxalq konvensiya və müqavilələr, milli qanunvericilik aktları, digər normativ aktlar Azərbaycan, rus və ingilis dillərində təkrar nəşr edilərək, yayılmış, keçirilən tədbirlər zamanı Agentliyin nəşrlərindən ibarət xüsusi kitab sərgiləri təşkil edilmişdir.

Maarifləndirmə tədbirləri çərçivəsində ÜƏMT Akademiyasının "Modul 1-4" təlim proqramları üzrə təhsil almış elm, təhsil, gömrük, bank və özəl sektoru təmsil edən təlimçi-məzunlarla görüş keçirilmiş, tərkibində ƏM obyektləri olan malların gömrük sərhədindən keçirilməsi zamanı tətbiq olunan prosedurlar, sənaye mülkiyyəti obyektlərinin qeydiyyatına dair iddia sənədlərinin verilməsində beynəlxalq təcrübə, ali təhsil müəssisələrində ƏM-in tədrisi və s. məsələlərə dair müzakirələr aparılmışdır.

Agentliyin və Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyasının rəhbərləri arasında keçirilmiş görüşdə sahibkarların maarifləndirilməsi üçün seminar keçirilməsi barədə əldə olunmuş razılıq əsasında 10-11 iyun tarixlərində PM-də sahibkarlar üçün "Sənaye mülkiyyəti obyektlərindən istifadənin hüquqi tənzimlənməsi" mövzusunda ödənişsiz təlim kursları təşkil edilmiş, kurslarında özəl sektoru təmsil edən **50-dək dinləyici** iştirak etmiş, təlim iştirakçılarına Agentliyin sertifikatları verilmişdir.

2019-cu ildə keçirilirmiş “Patent könüllüləri” layihəsində müxtəlif ixtisaslı **41 nəfər könüllü** iştirak etmiş, hazırda layihə iştrakçılarının bir neçəsi könüllü kimi Agentliyin tabeliyində olan qurumlarda uğurla fəaliyyət göstərir.

**8. Mədəni irsin qorunması və erməni plagiatına qarşı mübarizə.** Mədəni irsin qorunması və erməni plagiatına qarşı mübarizə tədbirləri hesabat ilində Agentliyin diqqət mərkəzində saxlanmış, 2019-cu il 19 aprel tarixində keçirilmiş “Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlığını və uydurmalarını ifşa edir” mövzusunda konfransda ermənilərin maddi və qeyri-maddi mədəni irs nümunələrimizə iddiaları növbəti dəfə təkzibedilməz elmi və tarixi faktlarla ifşa edilmişdir.

Bununla yanaşı, Rusiyalı müğənni Avraam Russonun ifa etdiyi **“Kamança”** mahnının Üzeyir Hacıbəyovun 1918-ci ildə Əhməd Cavadın sözlərinə bəstəldiyi **“Çırpınırdı, Qara Dəniz”** mahnısından plagiat edildiyi, həmçinin dahi bəstəkarımız Üzeyir Hacıbəylinin “O olmasın, bu olsun” musiqili komediyasının bir hissəsinin erməni bəstəkarı A.Babacanyan tərəfindən oğurlanaraq “Vaqarşabat rəqsi” kimi təqdim edilməsi faktları araşdırılmış, bununla bağlı elmi arayış hazırlanaraq yayılmışdır.

Ümumiyyətlə, Azərbaycanın mədəni irsinin, o cümlədən xalq mahnılarımızın, rəqslərimizin, bəstəkarlarımızın əsərlərinin ermənilər tərəfindən oğurlanması faktları, o cümlədən yuxarıda göstərilən faktlar barədə Əqli Mülkiyyət Agentliyi tərəfindən ÜƏMT-yə bir sıra etiraz müraciətləri göndərilmişdir.

Hesabat ilində erməni saxtakarlıqlarını ifşa edən **“Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya ermənilərin Qafqaz avtoxtonluğu cəhdləri” və “Кавказская Албания и генетический анализ в историко-географическом аспекте”** adlı kitablar hazırlanmış və nəşr edilmiş, bununla yanaşı, “Erməniçilik uydurmaları digər xalqların hüquqlarına xələl gətirir”, “Армянский геноцид” или армянский террор?”, “Erməni tarixi uydurmalarının tarixinə giriş”, “Öz-özünü təkzib edən “erməniçiliyin müəllif hüququ”, “Erməni müəlliflərinin kitablarındakı uydurmalara “müəlliflik hüququ” və s. kitabçalar, həmçinin “Erməni yadelli nağılları” kitabı və “Gəldim, gördüm..., mənimsədim” kitabçası (Azərbaycan, rus, ingilis və fransız dillərində) təkrar nəşr edilərək il ərzində Agentliyin keçirdiyi tədbirlərdə xarici qonaqlara, nümayəndələrə və tədbir iştirakçılarına paylanmışdır.

**9. Elektron xidmətlərin təşkili.** Hesabat ilində Agentliyin “Elektron xidmət” bölməsindən müəlliflik hüququ və əlaqəli hüquqlarla bağlı ümumi istifadələrin sayı 11304 olmuşdur. Elektron xidmət sistemi vasitəsilə 12 müəllifin 33 müraciəti əsasında 32 əsər qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında Şəhadətnamə verilmişdir. Elektron xidmətlərin dairəsinin genişləndirilməsi məqsədilə Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin və Respublika Elmi-Texniki Kitabxanasının göstərdiyi xidmətlərin bir hissəsinin “Elektron hökumət” portalında göstərilməsi üzrə işlər aparılmış və bununla bağlı təkliflər hazırlanmışdır.

Agentliyin göstərdiyi elektron xidmətlərdən yararlanan şəxslərin “Elektron hökumət” portalının imkanlarından istifadə etməsi üçün hesabat dövründə təbliğat, təşviqat və maarifləndirmə tədbirlərinə geniş yer verilmişdir.

**10. Beynəlxalq əməkdaşlıq.** 2019-cu ildə əqli mülkiyyət sahəsində beynəlxalq əlaqələr daha da dərinləşdirilmiş, sahə üzrə idarəetmə və koordinasiya fəaliyyətini həyata keçirən beynəlxalq təşkilatlarla, o cümlədən ÜƏMT və Avrasiya Patent Təşkilatı (APT) ilə əməkdaşlığın möhkəmlənməsinə xüsusi diqqət yetirilmişdir.

ÜƏMT-nin 2019-cu ildə keçirilən 59-cu sessiyası çərçivəsində keçirilən seçkilərdə ölkəmiz ÜƏMT-nin əsas komitələrindən olan Koordinasiya Komitəsinin (rotasiya qaydasında), həmçinin Proqram və Büdcə Komitəsinin üzvü seçilmiş, ilk dəfə olaraq Agentliyin nümayəndəsi ÜƏMT-nın ən nüfuzlu Bern İttifaqı Assambleyasının sədri seçilmiş, Azərbaycan nümayəndəsinin ÜƏMT Katibliyində təmsil olunması məsələsi həll olunmuş, Agentliyin nümayəndə heyəti ÜƏMT-nın Əlçatan Kitablar

Konsorsiumunun Katibliyinin və İqtisadiyyat və Statistika bölməsinin rəhbərliyi, həmçinin Türkiyə, Rusiya, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Ukrayna nümayəndələri ilə işçi görüşləri keçirilmiş, Azərbaycan üçün maraq kəsb edən məsələlər müzakirə edilmişdir.

Agentliyin Avrasiya Patent Təşkilatı ilə əlaqələri intensiv xarakter almış, Agentliyin İdarə Heyətinin sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti 2019-cu il 9 sentyabr tarixində Qazaxıstanın Nur-Sultan şəhərində "Avrasiya Patent Konvensiyasına sənaye nümunələrinin mühafizəsinə dair Protokol"un imzalanmasına həsr olunan Diplomatik konfransda iştirak etmişdir. Konfransda "Avrasiya Patent Konvensiyasına sənaye nümunələrinin mühafizəsinə dair Protokol"un mətni və diplomatik konfransın yekun aktı qəbul edilib. Azərbaycan Respublikası Hökuməti adından Protokolu Əqli Mülkiyyət Agentliyinin nümayəndəsi imzalamışdır.

Diplomatik konfransın keçirildiyi günlərdə ilk dəfə olaraq keçirilən "İnsan həyatının və sağlamlığının qorunması sahəsində" keçirilən ixtiraçılıq üzrə mötəbər yarışmada Azərbaycan milli patentinin müəllif kollektivi yüksək nəticə göstərərək qalib gəlmişdir. Bununla yanaşı, "Gələcəyə baxış" Avrasiya Patent Universiadasının nəticələrinə görə birinci yaş kateqoriyası (10-17 yaş) üzrə Təhsil Nazirliyinin tabeliyindəki Akademik Zərifə Əliyeva adına liseyin şagirdlərinin təqdim etdikləri "Su anbarlarının suyunun təmizlənməsi üçün bioplatonun tətbiqi" layihəsi birinci yerə layiq görülmüşdür. Müsabiqədə Azərbaycan nümayəndələrinin iştirakı Agentliyin bilavasitə dəstəyi və köməyi sayəsində baş tutmuşdur.

Agentliyin İdarə Heyətinin sədrinin başçılıq etdiyi nümayəndə heyəti 2019-cu ilin 23-24 aprel tarixlərində RF-nın paytaxtı Moskva şəhərində "Rəqəmsal transformasiya: IP diqqət mərkəzində" mövzusunda keçirilmiş II beynəlxalq konfransda RF-nın Əqli Mülkiyyət üzrə Federal Xidmətinin rəhbərinin dəvəti ilə fəxri qonaq və spiker qismində iştirak etmiş, qeyd olunan Federal Xidmətin və Avrasiya Patent İdarəsinin rəhbərləri ilə görüşlər keçirmiş, əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

Avropa İttifaqı Komissiyası ilə birgə reallaşdırılan "Rəqəmsal şəbəkələrdə əqli mülkiyyət hüquqlarının idarə olunması və qorunması məqsədilə Əqli Mülkiyyət Agentliyinin institusional potensialının gücləndirilməsi" Tvinninq layihəsinin həyata keçirilməsi ilə bağlı işlər görülmüşdür. Layihənin açılışı 2020-ci ilin əvvəllərinə planlaşdırılmışdır.

Hesabat ilində Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi bir sıra beynəlxalq təşkilatların və xarici ölkələrin əqli mülkiyyətə aidiyyəti olan nümayəndələri ilə 20-yə yaxın görüş keçirmiş, sahə üzrə əməkdaşlıq məsələləri müzakirə edilmişdir. Agentliyin nümayəndələri ölkə xaricində keçirilən 15-dən artıq beynəlxalq tədbirdə iştirak və çıxış etmiş, dövlətimizin əqli mülkiyyət sahəsində beynəlxalq əlaqələri ilə bağlı 180-dən artıq sənəd layihəsinə dair rəy və təkliflər hazırlanaraq, müvafiq qaydada təqdim edilmişdir.